UOT 94 (479/24)

# AQRAR SAHƏNİN TƏNZİMLƏNMƏSİNDƏ DÖVLƏT SİYASƏTİ (1991-2008-Cİ İLLƏR)

**X.A.İSLAMOVA**
***Bakı Dövlət Universiteti***
***Xoshgedem-islam@rambler.ru***

*Təqdim olunan məqalə qəbul olunmuş qanunların aqrar sahənin inkişfında oynadığı roluna həsr olunmuşdur. Qanunlar, respublikada aqrar sahənin iqtisadi xarakterini dəyişmiş, fermer təsərrüfat sisteminin və bazar münasibətlərinin formalaşmasına kömək etmişdir. Məqalədə müəllif Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyinin bir sıra problemlərini araşdırmışdır. Müəllif əsaslandırmışdır ki, ərzaq probleminin həlli dövlətin aqrar siyasətindən asılıdır.*

**Acar sözlər:** qanun, aqrar, ərzaq, fermer, dövlət

XX əsrin 90-cı illərinin əvvəllərində əski Sovet inzibati-amirlik sisteminin bazar iqtisadiyyatı ilə əvəz olunması prosesində xeyli ziddiyyətlər meydana çıxdı. Çünki respulikada bazar iqtisadiyatına keçid ilkin mərhələdə inzibati üsullarla həyata keçirilirdi. XX əsrin sonu XXI əsrin əvvəllərində dövlətin aqrar siyasəti və onun çərçivəsində həyata keçirilən aqrar islahatlar qanunvericilik baxımından 3 tarixi dövrdə (1991-1994-cü, 1995-2003-cü illərdə və 2003-cü ildən sonrakı dövrdə) həyata keçirilmişdi. Bu, əski, qapalı iqtisadi sistemin yeni iqtisadi sistemlə əvəzlənməsi əhali üçün qeyri-adi və gözlənilməz bir şəraitdə baş verdi. 70 il ərzində SSRİ-də təşəkkül tapmış iqtisadi sistemin yeni prinsiplərə uyğunlaşması üçün Azərbaycan Respublikasına 15 illk keçid dövrü lazım oldu (5,18).

Qloballaşan dünyada diqqəti cəlb edən əsas məsələ ərzaq təhlükəsizliyi məsələsidir. Bu isə bilavasitə aqrar siyasətlə bağlıdır. Ərzaq təhlükəsizliyi hər bir dövlətin milli təhlükəsizlik sisteminin tərkib hissəsini təşkil edir və əhalinin sabit həyatı üçün şərait yaradır. Bu problemin həlli müstəqil dövlətin həm iqtisadi, həm də ictimai sabitiliyini qoruyub saxlayan əsas şərtlərdəndir. Dövlətin cəmiyyətin iqtisadi həyatına müdaxiləsi tarixən mövcud olmuşdur. Ötən əsrin 70-ci illərindən dünya bazarında ərzağa olan tələbatın artması hər bir dövlətin müasir ictimai-iqtisadi və siyasi fəaliyyətində ərzaq təhlükəsizliyi problemini aktuallaşdırır (3,67). Buna görə də, 90-ci illərin əvvəllərində

Azərbaycan Respublikasında aqrar sahədə aparılmış islahatlar şəraitində dövlətin əsas strateji xətti əhalinin ərzaq məhsullarına olan tələbatının sabit və davamlı şəkildə təminatı üçün özül olmuşdur. Aqrar sahənin tənzimlənməsi dövlətin ərzaq müsəqilliyinə nail olmasına gətirib çıxaran siyasətdir.

Ərzaq təhlükəsizliyinin təminatı mürəkkəb və uzunmüddətli bir prosesdir, buna görə də, dövlətin həmin sahəyə kompleks yanaşması tələb olunur (2,56). Ərzaq təhlükəsizliyi strategiyası və taktikasının dövlət səviyyəsində həyata keçirilməsi ilk növbədə hüqüqi bazanın yaradılmasından və təkmilləşdirilməsindən asılıdır. Azərbaycan Respublikasında həyata keçirilmiş aqrar islahatların xarici ölkələrdə həyata keçirilmiş islahatlardan fərqli cəhəti ondan ibarətdir idi ki, o, daim ictimaiyyətin diqqət mərkəzində olmuş, kütləvi informasiya vasitələrində daha çox müzakirə edilmiş, beynəlxalq təşkilatların və özəl bölmənin iştirakı ilə həyata keçirilmişdir. Tarixi baxımdan belə bir cəhəti nəzərə almaq lazımdır ki, aparılmış islahatların nəticəsində mərkəzləşdirilmiş planlaşdırma sistemi öz fəaliyyətini dayandırmış, istehlak bazarında məhsullar liberallaşdırılmış, müxtəlif mülkiyyət formalarına əsaslanan, çoxukladlı təsərrüfatçılıq sistemi təşəkkül tapmışdır. İslahatların ilkin mərhələsində kənddə mükiyyətçilərin yaranmasına, sahibkarlığın inkişafına, bazar iqtisadiyyatının möhkəmlənməsinə, kəndin simasının dəyişməsinə təkan vermiş bir sıra tədbirlərin (vergilərin ödənilməsində kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştlərin verilməsi, onların gəlir vergisindən, ictimai sığorta ayırmalarından, mülkiyyət vergisindən, yol vergisindən azad edilməsi, mülkiyyət mənsubiyyətindən asılı olmayaraq bütün təsərrüfatçılıq qurumları üçün suvarma suyundan güzəştli şərtlərlə istifadə imkanlarının yaradılması və s.) görülməsi qısa müddət ərzində aqrar sahədə sürətli və əsaslı keyfiyyət dəyişikliklərinə səbəb oldu.

Lakin həmin uğurlarla yanaşı, hələ də aqrar sahənin inkişafına mane olan bir sıra çətinliklər, problemlər mövcud idi. Bu probemlərin həlli üçün bilavasitə dövlət müdaxiləsi əsas, vacib şərtlərdən biri idi. Aparılmış araşdırmalardan aydın oldu ki, kolxoz və sovxozların islahatı zamanı kəndlilərin rəyi əslində nəzərə alınmamış, könülülük prinsipləri pozulmuş, bütöv istehsal infrastrukturuna malik olan təsərrüfatlar «islahat» adı altında məcburi surətdə dağıdılmış, dövlət və bələdiyyə mülkiyyətinə torpaq və əmlakın verilməsi prosesində böyük əyintilərə yol verilmişdir. Qanunlara məhəl qoymadan ən məhsuldar və yararlı torpaqların keyfiyyəti baxımsızlıq üzündən aşağı düşmüş, maliyyə problemləri olduğuna görə paylanmış torpaqların əkilməməsi nəticəsində 80%-dən artıq əkin sahələri erroziyaya və şoranlaşmaya məruz qalmışdı və s. (4). Bütün bunlar dövlətin aqrar sahədə tənzimləyici rolunun gücləndirilməsini tələb edirdi. Aqrar sahəyə dövlət müdaxiləsinin əsas məqsədi ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə nail olmaq, eyni zamanda kənd əhalisinin maddi rifahını, ictimai-məişət şəraitini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq, yeni iş yerləri yaratmaq idi. Buna görə də, aqrar islahatların üçüncü mərhələsində həmin

məsələ bir sıra tarixi əhəmiyyətli dövlət proqramlarında daha qabarıq işıqlandırılmışdır.

2003-cü ildən Azərbaycan Respublikasında aqrar islahatların üçüncü mərhələsi başlandı. Respublika Prezidenti İ.H.Əliyevin rəhbərliyi ilə 2008-ci ilədək gerçəkləşdirilmiş fəaliyyət Dövlət Proqramında reqionların iqlim xüsusiyətləri nəzərə alınaraq bölgələr üzrə taxılçılığın, üzümçülüyün, pambıqçılığın, bostan-tərəvəz bitkilərinin və heyvandarlığın daha da inkişaf etdirilməsi, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması, yerli sahibkarlığın inkişaf etdirilməsi yolu ilə əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılması ön plana çəkilmişdir. 2003-2005-ci illərdə imzalanan fərman və sərəncamlar göstərdi ki, İ.Əliyev aqrar sahəni yalnız əhalini ərzaqla təmin edən bir sahə kimi qiymətləndirməmiş, məşğulluğun artırılması, yoxsulluğun ləvğ edilməsi və yeni iş yerlərinin açılması kimi vacib problemlərin həll edilməsi ilə yanaşı, həm də dövlətçiliyin möhkəmləndirilməsində mühüm rol oynayan sahə kimi əhəmiyyətli dərəcədə dəyərləndirmişdir (6).

Dövlət sahibkarldıq fəaliyyətini qanunvericilik, inzibati-hüquq, büdcə, vergi və pul-kredit sistemləri ilə tənzimləyir (4). Bu fəaliyyətin inkişafına dövlət maliyyə dəstəyi vermək üçün Prezidentin 4 may 2004-cü il tarixli fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadə qaydalarına əlavə dəyişikliklər edilmiş və burada sahibkarlar üçün çox böyük güzəştlər nəzərdə tutulmuşdur. Respublika Prezidenti İ.Əliyev 2004-cü ilin 2 fevralında Bakı Biznes Mərkəzində yerli sahibkarlarla keçirdiyi görüşdə mövcud vəziyyəti təhlil etmiş və sahibkarları dəstəklədiyini qeyd etmişdi. Prezident habelə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın həyata keçirilməsində fərqlənmiş bir qrup sahibkarı «Tərəqqi» medalı ilə təltif etmişdir (6). Dövlət Proqramında özəl bölmənin inkişafına xüsusi diqqət ayrılması sayəsində respublikada sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin sayı 15669-a çatmışdır və onlardan 9521-i bilavasitə kənd təsərrüfatı ilə, 6148-i isə emal sahəsində fəaliyyət göstərən şəxslərdir (6). Respublikada həyata keçirilmiş tədbirlər nəticəsində 2005-ci il üçün ölkə iqtisadiyyatında özəl bölmənin xüsusi çəkisi 73.5%-ə çatmışdır (5, 82). Məlumdur ki, regionların inkişafı yerlərdə yaradılmış sənaye obyektlərinin sayından, onların istehsal gücündən asılıdır. 2003-2008-ci illər ərzində regionlarda 300-dən çox orta və iri istehsal və emal müəssisəsi fəaliyyətə başlamışdır ki, burada istehal olunan məhsullar xaricdən gətirilən eyni məhsulları artıq sıxışdırmağa başlamışdır.

Məlumdur ki, 2007-ci ilin mart ayında Azərbaycan Respublikası Prezidentinin «Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında» sərəncamı ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının məhsul istehsalı üçün istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 50%-nin dövlət tərəfindən ödənilməsini təmin etmək üçün 2007-2008 ci illərdə dövlət büdcəsindən ümumilikdə 160 milyon manat vəsait ayrılmış və həmin vəsaitin təqribən 80 milyon manatı kəndlilərə ödənil-

mişdir (9). Bu, kənd təsərrüfatı əkinlərinin hər hektarından 40 manat əlavə gəlir əldə etməyə imkan verməklə bərabər istehsalın səmərəliyini artırır (9), kənd təsərrüfatı məhsullarının qiymət artımının qarşısını almaq məqsədi güdürdü. Lakin torpaq mülkiyyətçilərinin hər birinə düşən məbləğin azlığı və bu vəsaitlərin paylanması istiqamətində qeyri-obyektivlik görülmüş işlərin qənaətbəxş olmadığından xəbər verirdi. Araşdırmalar göstərir ki, kənd təsərrüfatı məhsullarına məsrəflər onların satış qiymətindən daha sürətlə artır və bu, respublikada fermer təsərrüfatının inkişafını ləngidən amil sayılmalıdır. Məhsul yığımından sonra məhsulun saxlanma şəraitinin olmaması fermerlər üçün ən problemli sahə idi. 2003-cü ildən sonra dövlət dotasiyaları hesabına respublikanın bir çox regionlarında müxtəlif tutumlu anbarlar tikilib istifadəyə verilmişdir, lakin həmin anbarlar məhsul istehsalçılarının tam tələbatını ödəmirdi. Bu səbəbdən 2009-cu ildə Sahibkarlara Milli Kömək Fondu 6 iqtisadi rayonda iritutumlu soyuducu anbarların tikintisi üçün investisiya layihələrinin müsabiqəsini elan etdi(9). Həmin layihələrin 30%-ni sahibkarlar, qalan qismini isə dövlət büdcəsi hesabına maliyyələşdirilmişdir.

İ.Əliyevin nəzarəti ilə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində kənd təsərrüfatının inkişafında 2005-ci il çox uğurlu olmuş, kənd təsərrüfatı məhsullarının əksəriyyətinin istehsalında ölkə tarixi üçün rekord göstəricilər əldə edilmiş, ümumi daxili məhsul 2 dəfə artmışdır. 2003-2008-cı illərdə ümumilikdə kənd təsərrüfatı məhsulunun həcmində 79% artım baş vermişdir (9). Kənd təsərrüfatı məhsulları istehsalında artımın baş verməsinə baxmayaraq, hələ də bir sıra məhsulların (pambığın, üzümün, tütünün və s. bitkilərin) məhsuldarlığını 90-cı illərin səviyyəsinə çatdırmaq mümkün olmamışdı. 2007-ci ildə dövlət tərəfindən fermerlərə yardım məqsədilə hər hektar səpilmiş buğda sahəsinə görə 40 manat pul ödənilmişdir (8). Maraqlıdır ki, 2009-cu il üçün fermerlər 2 milyon tondan çox taxıl istehsal etmiş, ölkə tələbatını artıqlaması ilə ödəmişlər. Lakin hələ də respublikaya gətirilən bitki məhsullarının 80%-i məhz taxılın payına düşür (9). Xaricdən respublikaya taxıl idxalının qarşısının alınmasında, əhalinin çörəyə olan tələbatının daxili istehsal hesabına ödənilməsində dövlət yardımlarının davam etdirilməsi aqrar sahənin inkişaf etdirilməsi üçün əsas şərtlərdəndir.

2001-2008- ci illər ərzində respublikada əhalinin əsas ərzaq məhsulları sırasında yalnız kartofla özünü təminetmə səviyyəsi 89%-dən 99%-ə, quş əti sahəsində bu göstərici 53%-dən 74%-ə, süd və süd məhsullarında 81%-dən 88%-ə qalxmışdır (9). İstehsal edilmiş balıq və balıq məhsulları və bitki yağları isə ölkədaxili tələbat tam ödəmiş və hətta ixrac edilmişdir (9). 2006-ci ildən ölkədə şəkər istehsalına başlanmış, 2007-ci ildə 44,0 min ton şəkər ixrac edilmiş, ölkə əhalisinin tələbatının 48%-i yerli istehsal hesabına ödənilmişdir. Ümumiyyətlə, 2009-cu il üçün kənd təsərrüfatında 3,5% artımın səbəbi ölkədə həm iqtisadi, həm də ictimai məsələlərin həlli üçün vacib olan aqrar sahənin sürətli inkişafıdır (9). Hətta 2009-cu ildə baş vermiş dərin iqtisadi və maliyyə böhranı dünya dövlətlərinin əksəriyyətini, o cümlədən Avropa Birliyinin üzvü

olan qabaqcıl ölkələrin iqtisadiyyatını tənəzzülə uğratdığı halda Azərbaycanın öz inkişafını davam etdirməsi dövlət siyasətinin düzgün istiqamətləndirilməsinin nəticəsi idi.

Aqrar sahədə aparılmış islahatlar bilavasitə kəndlilərin zəhməti və məsuliyyəti ilə ölçülür. Bu dəyərləndirmənin nəticəsidir ki Azərbaycan Respublikası Prezidentinin 9 oktyabr 2008-ci il tarixli Sərəncamı ilə hər il noyabrın 1-nin Azərbaycan Respublikasında «Kənd təsərrüfatı işçiləri günü» kimi qeyd olnuması qərara alınmışdır (9). Eyni zamanda 2008-ci ilin 9 oktyabrında Prezidentin fərmanı ilə Azərbaycan Respublikasının kənd təsərrüfatının inkişafında böyük nailiyyətlər qazanmış şəxslərin əməyinin qiymətləndirilməsi məqsədilə «Əməkdar kənd təsərrüfatı işçisi» fəxri adı təsis edilmişdir (9). 2009-cu ildə Azərbaycan Respublikasında ÜDM 9,3% artmışdır. Ölkə Prezidenti bunu «tarixi nailiyyət» adlandırmışdır (5, 213).

Beləliklə, H.Əliyevin təşəbbüsü ilə həyata keçirilən aqrar islahatların nəticəsi olaraq sahibkar kəndli təbəqəsi təşəkkül tapdı, kəndli pay torpağının xüsusi mülkiyyətçisi oldu, ölkənin kənd təsərrüfatında məhsul istehsalı sabitləşdi və ilbəil dinamik inkişafa nail olundu.

2003-cü ildən etibarən aqrar islahatların üçüncü mərhələsinin başlanması ilə ilkin mərhələdə qəbul olunmuş qanunların və normativ-hüquqi aktların dövlət nəzarəti altında həyata keçirlməsi nəticəsində ölkədə islahatlar xətti Azərbaycan Resupblikasının Prezidenti İ.Əliyev tərəfindən uğurla davam etdirilir. Bu mərhələdə kəndin ictimai-iqtisadi inkişafının daha da gücləndirilməsi, gənclərin kəndə bağlılığını artırılması üçün ictimai-infrastrukturun yaxşılaşdırılması, yeni iş yerlərinin açılması, bölgələrin inkişafına nail olmaq üçün yeni investisiya proqramlarının genişləndirilməsi, xarici investisiyaların həmin bölgələrə cəlb edilməsi, kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsinin yaxşılaşdırılması və s. kimi dövlət əhəmiyyətli tədbirlər görülmüşdür. Aqrar sahənin inkişaf səviyyəsi ölkənin ümumi iqtisadi inkişaf səviyyəsini səciyyələndirən əsas amil hesab olunduğundan həmin sahədə aparılmış məqsədyönlü tədbirlər Prezident İ.Əliyevin diqqəti və qayğısı sayəsində Azərbaycan dövlətçiliyi tarixində özünəməxsus yer tutacaqdır.

**ƏDƏBİYYAT**


1. Heydər Əliyev. «Torpaq islahatı haqqında» Qanun layihəsinin müzakirəsinə həsr edilmiş iclasda yekun nitqi. «Azərbaycan» qəz.., Bakı, 1996, 13 iyul
2. Salahov S.V. İslahatların və aqrar iqtisadiyyatın tənzimlənməsinin Azərbaycan modeli / «AETKTİ və Tİ-da aqrar islahatların ilkin nəticələri və perspektivləri» mövzusunda respublika elmi-praktiki konfransının materialları. Bakı: Təhsil NPM, 2003, s. 3-41
3. Salahov S. Aqrar sahənin tənzimlənməsi problemləri. Bakı: Nurlar, 2004, 501 s.

4. Məmmədov Q.Yeni mərhələdə torpaq islahatı: yeni torpaq münasibətləri. «Azərbaycan» qəz., Bakı, 2000, 24 may
5. Vəliyev D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008, 426 s.
6. Vəliyev D. Kənd təsərrüfatında dövlət tənzimlənmələri: qabaqcıl dünya təcrübəsinə doğru. «Xalq» qəz., Bakı, 2007, 16 yanvar
7. Аграрная реформа в пост-социалистическом пространстве. Опыт Болгарии, Молдавии, Азербайджана и Казахыстана // Рабочий доклад Всемирного Банка, 2007, № 94, 104 с.
8. http\\www.meclis.qov.az.
9. http\\www.aqro.qov.az.

## В РАЗВИТИИ АГРАРНОЙ СТРУКТУРЫ ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА (1991-2008 гг)

**Х.А.ИСЛАМОВА**

**РЕЗЮМЕ**

Представленная статья посвящена роли принимаемых законов и постановлений в осуществлении аграрной реформы. Законы изменили аграрные реформы в республике и характер экономики, помогли специализации фермерской хозяйственной системы и формированию рыночных отношений. В данной статье автор исследует некоторые проблемы питании в Азербайджанской Республике. Автор указывает, что решение проблемы питания зависит от развития аграрной премышленности.

**Ключевые слова:** закон, аграрный, продовольствие фермер, государство

## STATE POLICY IN THE DEVELOPMENT OF THE AGRARIAN STRUCTURE LATE IN XX – EARLY IN XXI CENTURIES (1991-2009)

**Kh.A.İSLAMOVA**

**SUMMARY**

The article deals with the role of laws and regulations in the implementation of agrarian reforms. Laws changed the agrarian reforms in the republic and the economy stipulated the specialization of the economic system and market relations. The author investigates some problems of food in the Azerbaijan Republic. The author shows that the decision of problems of food depends on the development of the agrarian industry.

**Key words:** law, agrarian, farmer, state